Aqrar Xidmətlər
Agentliyi

# YAPONİYA ÇÖPVARİ ÇANAQLI YASTICASI
# (Lopholeucaspis japonica Cockerell)



088-588
axa.gov.az

## Zərərverici haqqında

Sitrus və dekorativ bitkiləri, həmçinin xurma, heyva, alma, armud, əncir, gavalı ağaclarını, qızılgül, yasəmən, çay kollarını və s. bitkiləri zədələyir.Yaponiya çöpvari qalxanlı yastıcasının dişi fərdinin bədəninin uzunluğu 1 mm-ə yaxındır, çanağının uzunluğu isə 1,6-1,8 mm-dir. Bədəni sarı və ya limon rəngindədir. Erkək fərdlər qanadlıdır, uzun bığcıqları və bir cüt qanadları var. Çanağı uzunsov olub qəhvəyi rəngdədir. İl ərzində 2 nəsil verir.

## Mübarizə tədbirləri

Karantin tədbirlərinə ciddi əməl edilməli, zərərverici yayılmış ərazidən digər ərazilərə əkin və calaq materialının aparılmasına icazə verilməməli payız-qış dövründə ağacların gövdə və budaqlarının qalıqları dəmir fırçalarla qaşınaraq yastıcadan təmizlənməli, quru budaqlar kəsilərək yandırılmalı erkən yazda tumurcuqlar açanadək (gecələr temperatur 4ºC-dən, orta gündəlik temperatur isə 7,5ºC-dən yuxarı olduqda) mineral yağ emulsiyaları (Prepa rat 30 və s.) ağaclara çilənməli,vegetasiya müddətində zərərvericiyə qarşı aşağıdakı tərkibli preparatları növbələşdirməklə istifadə olunmaları məsləhət görülür:

a) fosfor üzvi birləşmələrdən - dime toat tərkibli
b) malation tərkibli preparatlardan
c) tiametoksam tərkibli; asetamiprid tərkibli; imidakloprid tərkibli
d) peritroid birləşmələrindən-deltametrin tərkibli



## Zədəsi